# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**"Gənc Alim və Tətqiqatçıların 7-ci**
**qrant müsabiqəsi"nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 1-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Tarixi mənbələrdə Qərbi Azərbaycan həqiqətləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/10/5-M-10**
Müqavilənin imzalanma tarixi: **17 noyabr 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2023-cü il - 01 iyun 2025-ci il**
*Layihənin **I mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Layihənin bu mərhələsi üçün mənbə və ədəbiyyatların toplanması nəzərdə tutulmuşdur. İlk növbədə mövzu üzrə müəyyən istiqamətlərdə yazılmış yerli və sovet tarixşünaslığında yer tutan əsərlərə müraciət edilmişdir. Qərbi Azərbaycanla bağlı yazılmış əsərlər içərisində müstəqillik dövründə aparılmış tədqiqatlar tam obeyktivliyi ilə seçilir. Buna səbəb sovet dövründə siyasi rejimin tələblərinə uyğun əsərlərin yazılması olmuşdur. Baxmayaraq ki, sovet dövründə yazılmış əsərlərdə də tarixi faktlar, tarixi ərazilərimizin etnik tərkibi, ermənilər tərəfindən dağıdılmış maddi-mədəniyyət nümunələrimiz barədə məlumatlar, mühüm faktlar verilən əsərlər də mövcuddur. Lakin bu əsərlərdə ermənilərin törətdiyi əməllər, sovet sisteminin torpaqlarımızı qopararaq Ermənistana verməsi, azərbaycanlıların deportasiyası kimi faktlara obyektiv və real münasibət yoxdur. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra tariximiz obyektiv şəkildə araşdırılmağa başlandı ki, digər tarixi məsələlərimiz ilə yanaşı Qərbi Azərbaycanla bağlı müxtəlif istiqamətli – etnik təmizləmə, tarixi abidələrimiz və onların ermənilər tərəfindən məhvi, toponomikanın süni surətdə dəyişdirilməsi və s.kimi mühüm məsələləri araşdıran əsərlər meydana gəldi. Bunlardan Əziz Ələkbərlinin müəllifi olduğu "Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı", "Qərbi Azərbaycan abidələri", "Qədim türk-oğuz yurdu – "Ermənistan"", "Qərbi Azərbaycanda soyqırıma məruz qalmış toponimlərimiz" monoqrafiyalar vardır. Müəllif bu əsərində ermənilər tərəfindən toponimlərimizin dəyişdirilməsi ilə bağlı mühm məsələyə toxunmuş, 953 toponim barədə ətraflı məlumat vermişdir. Ə.Ələkbərli Qərbi Azərbaycanda yerləşən tarixi abidələrimiz haqqında məlumat vermişdir. Buradan aydın olur ki, bu |

tarixi abidələr Azərbaycan tarixinə aid maddi-mədəniyyət nümunələri olduğu və tarixi həqiqətləri əks etdirdiyi üçün erməni vandalizminə məruz qalmışdır. Müəllifin "Abbasqulu bəy Şadlinski" adlı əsəri də mövcuddur. Bu əsərdə XX əsrin əvvəllərində Vedibasar mahalında ermənilərin cinayətlərinə, törətdiyi qətllərə qarşı çıxış edən Abbasqulu bəy Şadlinskinin milli mübarizə əzmindən bəhs edilmişdir. Qərbi Azərbaycan həqiqətlərinin əks olunduğu digər əsər Güntəkin Nəcəfli tərəfindən yazılmış "İrəvan xanlığı: İrəvan xanlığının paytaxtı – İrəvan şəhəri" adlı əsərdir. Burada qədim dövrdən İrəvanın tarixi, ərazisi, abidələri və əhalisi barədə ətraflı məlumat verilmişdir. Müəllifin "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövlətinin yaradılması cəhdləri" adlı monoqrafiyası müxtəlif dövrlərə aid Rusiya və Türkiyədə çap edilmiş arxiv sənədləri, həmçinin, erməni müəlliflərinin əsərlərindən istifadə edilməklə tərtib edilmişdir. Burada ermənilərin saxtakar, kiüzlü siyasəti tarixi mənbələr, arxiv sənədləri əsasında ifşa edilmişdir. G. Nəcəflinin "Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar" adlı tədqiqat əsərində qeyd edilən ərazilərdə ermənilərin törətdikləri soyqırımlar öz əksini tapmışdır. AMEA A.Bakıxaov adına Tarix İnstitutu tərəfindən nəşr edilmiş "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı kollektiv müəlliflər tərəfindən hazırlanmış əsərdə mühüm tarixi faktlar təhlil edilmişdir. Bu kitabda Əfşarlar imperiyasının süqutundan XIX əsrə qədər olan hadisələr qələmə alınmışdır. Burada XIX əsrdə Azərbaycan torpaqlarının işğal edilməsi, İrəvan xanlığının Rusiya tərkibinə keçməsi, bu ərazilərə ermənilərin köçürülməsi kimi məsələlər tarixi mənbələr əsasında şərh edilmişdir. Ramazan Hüseynov "Qərbi Azərbaycan mühacir hökuməti ideyadan gerçəkliyə" adlı əsəri xüsusilə maraqlıdır. Belə ki, hələ 2006-cı ildə yazılmış bu əsərdə tarixi faktlar göstərilməklə yanaşı, Qərbi Azərbaycan ərazisindən deportasiya edilmiş azərbayanlıların hüquqlarının bərpası kimi Qərbi Azərbaycan mühacir hökumətinin qurulmasının vacibliyi, onun strukturu, əsas məqsədi və fəaliyyət mexnanizmi haqqında məlumat vermişdir. Bu əsər yazılanda hələ də torpaqlarımız işğal altında idi və torpaqlarımızın azad edilməsi uğrunda danışıqlar çərçivəsində diplomatik mübarizə gedirdi. Məhz belə bir zamanda R. Hüseynov öz tarixi torpaqlarından qovulmuş azərbaycanlıların mühacir hökumətinin təşkilinin tarixi-siyasi zərurət olduğunu qeyd edilən əsərində əsaslandırmışdır. Müəllif bu ideyasını "Ulu yurdum İrəvan" adlı əsərində də vurğulamışdır. Digər tədqiqat əsərlərindən biri də İbrahim Bayramovun "Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti" adlı kitabıdır. Burada da indi Ermənistan adlandırılan Qərbi Azərbaycanın tarixi coğrafiyası, etnik tərkibi, rus və ermənilərin bu ərazilərə köçürülməsi və xalqımızın başına gətirilən müsibətlər faktlar əsasında şərh edilmişdir. Səmədova Könülün "Qərbi Azərbaycan etnotoponimlərinin arealları" adlı əsərində Qərbi Azərbaycan ərazisindəki türk mənşəli etnotoponimlər linqvistik, coğrafi və tarixi aspektdə tədqiq edilmişdir. Burada 4600-dən çox toponimin 70%-nin tayfa və tayfa başçılarının əlaqəliolması göstərilmişdir ki, bu da bir daha bu ərazilərin azərbaycanlıların doğma yurdu olduğunu təsdiqləyir. İbrahim Bayramovun "Qərbi Azərbaycan şivələrinin leksikası" adlı əsəri də linqvistik baxımdan araşdırılan tədqiqat əsərləri sırasına daxildir. Bu əsərdə müəllif tərəfindən Azərbaycan dialekt və şivələrində Qərbi Azərbaycan şivələrinin yeri ilə bağlı məsələlərə toxunulmuş, Qərbi Azərbaycan şivələrində işlənən sözlər izah edilmiş, Gürcüstanın Azərbaycan şivələrində, Dərbənd, Təbriz dialektlərində işlənən sözlərlə müqayisəli təhlili verilmişdir. Həbib Rəjimoğlu "silinməz adlar, sağalmaz yaralar" adlı kitabı da Qərbi Azərbaycan həqiqətlərinin tədqiqinə həsr edilmişdir. Bu əsərdə iki xəritə verilmişdir ki, xəritələrin birində İran və Türkiyə ərazisindən köçürülmüş ermənilərin İrəvan xanlığının hansı əazilərində yerləşdirildiyi qeyd edilmişdir. Digəri isə 1903-cü ildə Tiflisdə Qafqaz Hərbi Dairəsinin mətbəəsində çap edilmiş xəritədir. Bu xəritədə İrəvan quberniyası və onun qəzaları təsvir edilmişdir ki, buradan da buərazilərin tarixi Azərbaycan torpaqları olması bir daha sübut edilir. "Qərbi Azərbaycan (indiki Ermənistan): yazarlar" adlı kitabda Qərbi Azərbaycan əsilli yazıçılar, şairlər

və publisistlər haqqında məlumat verilmiş, onlar Qərbi Azərbaycanın mahallar, nahiyələr, rayonlar və kəndləri üzrə qruplaşdırılmışdır. Eldar İsmayılov və Gündüz Əhmədlinin tədqiqat əsəri olan "Qərbi Azərbaycan Göyçə-erməni işğalı"nda tarixi saxtakarlıqlar real faktlarla ifşa edilmişdir. Belə ki, müəlliflər Q. K. Qabrielyanın "Mirvari Sevan" kitabındakı saxtakarlıqları zəngin tarixi faktlarla təkzib etmişdir.

Mahirə Hüseynovanın tədqiqat əsəri olan "Qərbi Azərbaycan paleotoponimlərinin linqvinstik etimoloji təhlili"ndə indiki Ermənistan Respublikası – Qərbi Azərbaycan ərazisində mövcud olmuş paleotoponimlər fonetik, leksik, semantik xüsusiyyətləri araşdırılmışdır. Əsərdə Azərbaycan xalqının bu ərazilərin ən qədim sakinləri olması elmi baxımdan – linqvistika nöqteyi-nəzərindən əsaslandırılmışdır. Bilal İsrafiloğlu tərəfindən yazımış "Xalisa: məhəllələr, tayfalar, ailələr" adlı əsər Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisə kəndinə həsr edilmiş çoxcildli kitabın II cildini təşkil edir. Bu əsər üç bölmədən ibarətdir. Birinci bölmə 1958-ci ilə kimi, ikinci bölmə isə 1958-1988-ci illər ərzində burada yaşamış əhali, inşa edilmiş tikililər haqqında məlumat verilmişdir. Kitabın üçüncü bölməsi isə adət-ənənələr ilə bağlı milli etnoqrafik xüsusiyyətləri özündə əks etdirən hadisələri əhatə edir. Azərbaycan Qaçqınlar Cəmiyyəti İB tərəfindən hazırlanmış "1988-1992-ci illər deportasiyası zamanı Qərbi Azərbaycan qaçqınlarına dəyən maddi və mənəvi ziyan" adlı topluda Qərbi Azərbaycandan deportasiya edilmiş şəxslərə dəyən maddi və mənəvi ziyan, onların ictimai təsərrüfatlarda qalan əmlakı haqqında məlumatlar verilmişdir. Mirzəli Fərmanoğlu tərəfindən yazılmış "Qərbi Azərbaycanda tarixi abidələrimiz" adlı əsərdə vaxtilə, yəni XX əsrin sonların kimi bu ərazilərdə mövcud olmuş, lakin bu gün adları yalnız tarixi mənbələrdə qalan abidələrimiz haqqında məlumat verilmişdir. Validə Ağamalıyevanın yazdığı "Qərbi Azərbaycanda ermənilərin törətdikləri vəhşiliklər" adlı kitabında adından da məlum olduğu kimi, ermənilər tərəfindən xalqımıza qarşı aparılmış siyasət, soyqırımlar araşdırılmışdır. Burada mərhələli şəkildə azərbaycanlıların əzəli yurdlarından indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalması, həmçinin, tarixi-mədəni abidə və yaşayış məskənlərinin dağıdılması kimi mühüm məsələlərə yer verilmişdir. Müəllif xalqımıza qarşı törədilmiş bu qeyri-humanist addımların insanlıqdan uzaq olduğunu və hüquqi qiymət almadığını əsaslandırmışdır.

Qərbi Azərbaycanla bağlı tədqiqat əsərləri içərisində mədəniyyət, ədəbiyyat sahələrinə aid mühüm məsələlərin araşdırılmasına da geniş yer verilmşdir. Bunlardan biri Rauf Bəhmənlinin tədqiqat əsəri "Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları"dır. Bu əsərdə İrəvan bölgəsində yaranmış Azərbaycan yallı rəqslərinin ermənilər tərəfindən necə saxtalaşdırıldığı geniş şəkildə və tutarlı faktlarla təhlil edilərək ifşa edilmiş, həmin bölgəyə aid 43 yallı havasının not yazıları qeyd edilmişdir. Qərbi Azərbaycan folkloruna aid tədqiqat əsərləri də var. Həsən Mirzəyev tərəfindən "Dərələyəz folkloru" əsərində Qərbi Azərbaycanın Dərələyəz mahalından toplayıb tərtib etdiyi folklor nümunələri verilmişdir. "Azərbaycan folkloru antologiyası"nın Iı cildi Zəngəzur folklore nümunələrini əhatə edir. "Qərbi Azərbaycan aşıqları" adlı toplu 2023-cü ildə nəşr edilmişdir ki, bu əsərdə Qərbi Azərbaycanda aşıq sənətinin inkişafı, müəyyən aşıqların həyat və yaradıcılığı haqqında məlumat qeyd edilmişdir.

Qərbi Azərbaycan həqiətləri ilə bağlı bu əsərlərdən başqa çoxsaylı tədqiqat əsərləri mövcuddur. Onlar layihə müddətində əldə edilmiş, ümumiləşdirilərək, müqayisəli şəkildə təhlil edilməkdədir. Tarixşünaslıqda yer alan əsərlərlə yanaşı tarixi həqiqətləri sübuta yetirən mənbələrin topanması və sistemləşdirilməsinə başlanılmışdır. İrəvan əyalətinin icmal dəftəri, İrəvan əyalətinin müfəssəl dəftəri adlanan tarixi sənədlər, Osmanlı dəftərləri, çar dövründə aparılmış inzibati-sosial xarakterli araşdırmaların əks oldundğu Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri də tarixi reallıqları əks etdirən faktları özündə əks etdirir. İvan Şopenin "Исторический памятник состояния армянской-

| | |
|---|---|
| 2 | области в эпоху её присоединения к российской империи” adlı 1852-ci ildə yazılmış əsəri də bu ərazilərə ermənilərin sonradan köçürüldüyünü təsdiqləyən mənbələrdən biridir. Bundan başqa, Şavrovun yazdıqları da ermənilərin sonradan köçürüldüyü, azərbycanlıların bu ərazilərin əzəli sahibləri olduğunu sübut edir. Həmçinin, qədim dövrə və orta əsrlərə aid mənbələrdə də mühüm tarixi faktlar mövcuddur. Mixi yazılı mənbələr, antik dövrə aid qaynaqlar, orta əsrlərdə səyyagların gündəlikləri də layihə mövzusunun araşdırılması zamanı istifadə ediləcək mənbələrə aiddir. Bu mənbələr müxtəlif vaxtlarda Azərbaycan dilinə tərcümə edilsə də, bəziləri Türkiyə, Rusiya və Avropa, ABŞ-da tərcümə edilərək nəşr edilmişdir. Onların bir hissəsi əldə edilmiş və təhli edilməkdədir. Digər hissəsinin əldə edilməsi ilə bağlı araşdırmalar aparılır.<br>Vətən müharibəsində Azərbaycanın qələbə qazanması, ərazi bütövlüyümüzü təmin etməklə yanaşı, regionda yeni reallıqlar yaratdı. Zəngəzur dəhlizinin açılması kimi mühüm məsələ irəli sürüldü. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi ilə 30 il doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz doğma yurdlarına geri qayıtması prosesinə başlandı. Bu proses Zəngilan rayonunun Ağalı kəndinə vaxtilə ermənilər tərəfindən oradan zorla çıxarılmış əhalinin geri qayıtması ilə start götürdü. Sözsüz ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti yalnız bundan ibarət deyildi. XX əsrin əvvəllərindən ermənilər xalqımıza qarşı aktiv şəkildə etnik təmizləmə  aparmış, soyqırım törətmişlər. Qeyri-insani şəkildə dinc əhaliyə qarşı törətdiyi hücumlar nəticəsində azərbaycanlılar öz doğma, tarixi yerlərindən didərgin düşmüşlər. 1905-1906-cı illər, 1918-ci ilin martında törətdikləri soyqırım, Cənubi Qafqazda müstəqil dövlət kimi formalaşandan sonra Ermənistanın siyasi xətti ilə davam etdirilmişdir. Andronikin, Dronun başçılığı ilə ermənilər tarixi torpaqlarımızı erməniləşdirmək üçün burada yerli əhalini qovmaq, qətllər törətməklə məhv etməyə, bununla da Azərbaycanın tarixi torpaqlarının etnik tərkibini dəyişməyə çalışmışlar. Ermənistanın və ermənilərin bu mənfur əməlləri sovet hakimiyyəti illərində mövcud siyasi rejimin dəstəyi ilə daha da genişləndirilmişdir. 1920-ci ildə Zəngəzur sovet rəhbərliyi tərəfindən Azərbaycandan qoparılaraq Ermənistana verilmişdir. Bununla bağlı tarixi sənədlər sübut edir ki, bu ərazi tarixi Azərbaycan torpağıdır. Belə sənədlərdən biri də Anastas Mikoyanın 1920-ci ilin yayında Leninə yazdığı məkdubdur. O, həmin ilin iyununda Q.Orconikidze də Q.Çiçerinə göndərdiyi teleqramında bildirirdi ki, Qarabağ və Zəngəzur özlərini Azərbaycan Sovet Sosialist Respublikasının tərkib hissəsi hesab edirlər. Nərimanov, Mdivani, Mikoyan və Nuricanyan tərəfindən imzalanmış başqa bir teleqramda göstərilirdi ki, Zəngəzur və Qarabağ heç bir halda mübahisəli ərazi ola bilməz və bu yerlər həmişəlik Azərbaycanın tərkibində qalmalıdırlar. Bu sənədlər Azərbaycanın tarixi torpaqları barədə,azərbaycanlıların bu yerlərin əzəli sakinləri olması faktını bir daha sübuta yetirir. Azərbaycanlıların tarixi torpaqlarından deportasiya edilməsi XX əsrin 40-50-ci illərində də davam etdirilmiş, 1948-53-cü illərdə kütləvi şəkildə deportasiya tədbirləri sovet hökumətinin rəsmi qərarı ilə həyata keçirilmişdir. Lakin bu hələ son deyildi, ermənilər bununla da kifayətlənməyərək, Ermənistan SSR tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və sovet rəhbəliyindən deportasiya tədbirlərinin davam etdirilməsi ilə bağlı tələblər irəli sürdülər. Aparılmış deportasoya tədbirləri nəticəsində kütləvi şəkildə azərbaycanlılar öz doğma yerlərindən çıxarıldı. Amma Ermənistan bununla qane olmadı, çünki yüz minlərlə əhali doğma torpaqlarından qovulsda da, ermənilərin xülyası olan “Böyk Ermənistan” üçün bu torpaqların tamamilə erməniləşdirilməsi nəzərdə tutulurdu. Məhz buna görə də XX əsrin 80-ci illərində xalqımıza qarşı etnik təmizləmə siyasəti davam etdirilmişdir.  44 günlük Vətən müharibəsi nəticəsində işğaldan torpaqlarımızın azad edilməsi, antiterror tədbirləri nəticəsində suverenliyimizin tam təmin edilməsi doğma torpaqlarından zorla qovulan Qərbi Azərbaycan əhalisinin tarixi hüquqlarının bərpası məsələsini aktuallaşdırmışdır. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb |

| | |
|---|---|
| | üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>90% |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>Layihənin araşdırılması zamanı əldə edilmiş mənbə və ədəbiyyatlar Qərbi Azərbaycan əhalisinin tarixi hüquqlarının bərpası istiqamətində təhlil edilərək nəzərdən keçirilmişdir. Belə ki, mənbələrdə əks edilmiş faktlar bu ərazilərin azərbaycanlıların tarixi torpaqları olmasını və Qərbi Azərbaycanın etnik tərkibinin süni və qeyri-humanist şəkildə dəyişdirildiyini bir daha sübut edir. Bu da azərbaycanlıların hüquqlarının pozulmasını, pozulmuş hüquqlarının bərpasının tarixi-siyasi zərurət olduğunu göstərir. Mənbələrdə Qərbi Azərbaycan əhalisinin tarixi, etnik tərkibi, azərbaycanlıların başına gətirilən müsibətlər, soyqırım ilə bağlı faktlarla yanaşı, tarixi abidələrimizin vandalizminə məruz qaldığı, toponomikaların sonradan dəyişdirildiyi və bunda əsas məqsədin izlərini aydın görmək mümkündür. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusunun araşdırılması zamanı keyfiyyət tədqiqat metodundan, sənəd təhlilindən istifadə edilmişdir. İlk növbədə mövzu ilə bağlı bu vaxta kimi yazılmış monoqrafiyalar, məqalələrə müraciət edilmişdir. Eyni zamanda, ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə İsmayılova Aygün və icraçı Abbasova Sevincin həmmüəllif olduğu "Qərbi Azərbaycan həqiqətlərinin tədqiqi səviyyəsi" adlı məqalə "Geostrategiya" jurnalında çapa qəbul edilmişdir. |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Sosial Tədqiqatlar Mərkəzinin 29.12.2023-cü il tarixində təşkil etdiyi "Qərbi Azərbaycan yolunda" adlı konfransda iştirak etmişəm. |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Sosial Tədqiqatlar Mərkəzinin 29.12.2023-cü il tarixində təşkil etdiyi "Qərbi Azərbaycan yolunda" adlı konfransda Stalin dövründə həyata keçirilmiş deportasiyalar və Qərbi Azərbaycan həqiqətlərinin araşdırılması, tədbirlərin sistemli təşkili ilə bağlı çıxış etmişəm. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>yoxdur |

| | |
|---|---|
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Mənbələrin toplanması və təhlili ilə bağlı bu sahənin mütəxəssisləri tarix elmləri doktoru Anar İsgəndərli, tarix üzrə fəlsəfə doktoru Samir İsmayılov, tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova ilə əlaqə saxlanılmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>yoxdur |

**Layihə rəhbərinin imzası ____________________ İsmayılova Aygün Vilayət qızı**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.